# Qərbi Azərbaycana qayıdış haqq-ədalətin bərpasıdır

Qəbələ rayon Tarix-Diyarşünaslıq Muzeyi, Gənclərin İnkişaf və Karyera Mərkəzi Dağlıq Şirvan regional nümayəndəliyinin və Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə "Qərbi Azərbaycana qayıdış" layihəsi çərçivəsində "Qərbi Azərbaycana qayıdış haqq -ədalətin bərpasıdır" mövzusunda tədbir həyata keçirilib. Tədbir çərçivəsində vaxtilə ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi , müxtəlif vaxtlarda etnik mənsubiyyətinə görə Ermənistan ərazisindən kütləvi şəkildə deportasiya olunmuş azərbaycanlıların taleyi, məhv olmuş tarixi -dini abidələrimiz, qədim yaşayış məskənlərimizin adının dəyişdirilməsi və son olaraq 1988-cı ildə xalqımıza qarşı törədilmiş terror aktlarının həyata keçirilməsi mövzusunda məruzələr dinlənilmiş, məruzələr ətrafında çıxışlar olmuşdur.



Çıxış edənlər bildiriblər ki, bu gün Azərbaycan dövlətinin prioritet istiqamətlərindən biri tarixi dədə-baba torpaqlarından didərgin düşmüş minlərlə azərbaycanlıların mənəvi və hüquqi haqlarının bərpası, onların varislərinin ictimai-mədəni birliyinə nail olmaqla hüquqlarının beynəlxalq müstəvidə bərpasına yönəlib. Eyni zamanda Ermənistan ərazisində Azərbaycan xalqının yaratdığı zəngin tarixi-mədəni irsin öyrənilməsi, təbliğ olunması və tam məhv olunmasının qarşısının alınması da qarşıda duran vacib vəzifələrdən biri kimi qəbul edilib.

Sonda mövzu ilə bağlı videoçarx nümayiş etdirilib.

**İlhamə SEYİDOVA,**
**"Qəbələ"nin ştatdankənar müxbiri**

# Vətən fədailəri

***Şəhid adı ən ülvi hisslərlə xatırlanan ali titruldur. Bu adı daşıyanlar insanların qan yaddaşında əbədilik qazananlardır. Onlar daim qəlbən yaşayan, nəsillərə örnək olan kəslərdir. İşğal altında olan torpaqlarımızın azad olunması üçün başlanan 44 günlük Vətən müharibəsindən 4 ilə yaxın bir vaxt keçməsinə rəğmən igidliklə döyüşərək canını vətən yolunda qurban verən oğullar daima xatırlanır. Axı onlar tarix yazaraq zəfər sözünü yenilədilər və torpaqlarımız əsarətdən azad olundu. Onlar arasında qədim Qəbələ torpağından onlarca igid şəhid oldu. Yüzlərlə döyüşçülərimiz həm psixoloji, həm də cismani yaralar aldılar, sağlamlıqlarını itirdilər. Onlardan 2 nəfər - məhz avqust ayında doğulan Əsəd Zeynallı və Aydın Bayramov haqqında qısaca da olsa məlumat vermək, onları bir daha xatırlamaq istərdik.***



**Əsəd Arzuman oğlu Zeynallı** - 1999-cu ilin avqust ayının 12-də rayonumuzun Seyidqışlaq kəndində doğulmuşdur. Seyidqışlaq kənd məktəbində orta təhsil almışdır. Təhsilini Qəbələ Şəhər Peşə Məktəbində davam etdirmişdir.

2020-ci ilin 27 sentyabrında başlanan Vətən müharibəsinə könüllü getmək üçün hərbi komissarlığa müraciət etmişdir. Əsəd bu müharibənin ilk günlərindən igidliklə döyüşmüşdür. Suqovuşan uğrunda gedən döyüşlərdə, ümumiyyətlə Tərtərin azad olunmasında qəhrəmanlıqla döyüşmüş, oktyabrın 13-də şəhadətə qovuşmuşdur. İgid döyüşçünün nəşi uzunmüddətli axtarışlardan sonra tapılaraq Seyidqışlaq kəndində dəfn olunmuşdur.

Ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.



**Aydın Mətləb oğlu Bayramov** - rayonumuzun Əmirvan kəndində anadan olmuşdur. Orta təhsilini Əmirvan kəndində almışdır. Orta təhsilini başa vurduqdan sonra həqiqi hərbi xidmətə getmiş və Qusar rayon hərbi hissəsində kəşfiyyatçı kimi xidməti başa vurmuşdur. O, 2016-cı ilin aprel döyüşlərində kəşfiyyatçı kimi iştirak etmişdir.

2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ, Talış kəndi, Ağdərə istiqamətində gedən döyüşlərdə döyüşmüşdür. Oktyabrın 9-da Ağdərə uğrunda gedən döyüşlərdə şəhid olmuşdur.

Polad əqidəli igid döyüşçü bir çox medallarla, o cümlədən "Vətən uğrunda" medalı ilə təltif olunmuşdur. Bahar ömürlü şəhidlərimiz, məkanlarınız cənnət olsun!

Cənnətməkandakı mövludunuz mübarək!

**Nigar PƏNAHLI,**
**Vəndam qəsəbəsi.**

# Təhsil bizim gələcəyimizdir

***"Təhsilin keyfiyyəti artmışdır və artır. Bunu müxtəlif reytinqlər göstərir və əlbəttə, bunun əsas səbəblərindən biri müəllimin peşəkarlığından asılıdır. Müəllimlər uşaqları necə öyrədirsə uşaqlar da buna uyğun şəkildə biliklər əldə edirlər."***

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti.**

Təhsil hər bir xalqın inkişafı, uğurlarıdır. Təhsil dünyagörüşün, həyatabaxışın zənginliyi, vətənpərvərliyin, milli-mənəvi dəyərlərin güclülüyüdür. Bilik əldə etmək yalnız ali təhsil almaq üçün deyil, həyatı daha doğru, düzgün dərk etmək üçün dünyagörüşün zənginləşməsi və həyat anlamına münasibət deməkdir. Hər bir müəllim öz bilik və bacarığını şagirdinə öyrədə bilirsə, istər orta məktəb müəllimi, istərsə də repetitorlar - o şagirdin bilik səviyyəsi daha yüksək olur.

Qəbələ rayon "Lider" repetitor mərkəzinin müdavimlərindən bu il 30 nəfər ölkəmizin müxtəlif ali məktəblərinə qəbul olmuşdur.

Qəbələ məktəblərindəki müəllimlərin və repetitorların zəhməti şagirdlərin ali məktəbə qəbul imtahanlarının real göstəricilərində daha aydın nəzərə çarpır. Maraqlı faktlara istinad edək:

2023-2024-cü tədris ili əvvəlki tədris illərində olduğu kimi Qəbələ rayonun təhsil kollektivləri üçün uğurlu olmuşdur. Çox sevindirici haldır ki, bu il rayonun tam orta təhsil səviyyəsi üzrə 1173 nəfər məzunundan 100 nəfəri fərqlənmə attestatı, 2 nəfəri isə qızıl nişana layiq görülüb və xüsusi nümunəli attestat almışdır. Ümumi orta təhsil səviyyəsi üzrə 1509 şagirddən 35 nəfər fərqlənmə attestatı ilə məktəbi bitirib. XI siniflərin buraxılış imtahanında 3 nəfər şagird maksimum nəticə göstərib. Ali məktəblərə sənəd verən 782 məzundan 556 nəfəri ölkənin müxtəlif ali məktəblərinə qəbul olub.

Məzunlardan 53 nəfər 600-dən yuxarı bal toplamışdır. Ən yüksək nəticə, 682,2 baldır. Həmçinin daha sevindirici bir faktı da qeyd edək: rayon məktəblərinin məzunlarından 21 nəfəri yüksək balla Qarabağ Universitetinin ilk tələbələrindən olacaqdır.

Rayon üzrə ən yüksək göstərici Həmzəlli kənd orta məktəbin şagirdi Yusibov Elşən Səfa oğludur. O, 682,2 balla rayon birincisi olmuş və Azərbaycan Tibb Universitetinə qəbul olmuşdur.

Tələbə adı qazanan bütün məzunlarımıza uğurlar arzulayırıq! Onlar bizim gələcəyimizdir.

**Afət İSRAYILOVA,**
**Qəbələ şəhəri.**

# Gələcəyin həkimləri



**Yusibov Elşən Səfa oğlu** - Həmzəli kəndində doğulmuşdur. Həmzəli kənd orta məktəbini bitirmişdir. Hələ körpə yaşlarında həkim olmaq, insanların sağlamlığı keşiyində durmaq onun ən ümdə arzusu idi. Həmişə dərslərində çalışqan olan Elşən öz zəhmətinin bəhrəsini hiss etdi. Həkimlik peşəsinə yiyələnmək üçün artıq o bu şərəfli yola ilk qədəmlərini atmaq ərəfəsindədir. Ali məktəbə qəbul imtahanlarında yüksək bal toplayaraq rayon birincisi olmuşdur.

Elşən Yusibov 682,2 balla Azərbaycan Tibb Universitetinin müalicə işi fakültəsinə qəbul olmuşdur. Uğurların daima bol olsun və səninlə qürur duyaq, Elşən!



**Səidə Elçin qızı Feyzullayeva** - şəhər 5 saylı orta məktəbin məzunudur. 2006-cı ildə doğulmuş, 2013-cü ildə ibtidai təhsilə başlayan, 2024-cü ildə məzun olan Səidə 602,7 balla Azərbaycan Tibb Universitetinin stomotologiya fakültəsinə qəbul olunmuşdur. Səidə Feyzullayeva tələbə adı qazanması ilə atasının ruhunu şad etdiyi üçün daha çox sevinir.

**Gülnarə İSRAYILOVA,**
**Qəbələ şəhəri.**

# Unutmayaq, unudulmayaq

Vətənpərvərlik hissi güclü, mənəviyyatı zəngin olan insanlar Vətən xalq üçün sağlamlığını itirən, canını qurban verənləri həmişə yaddaşında yaşadır, qəlblərində olan sevgisini əməlləri ilə biruzə verirlər.

Şəhid ailələrinin dərd ortağına çevrilənlər hər zaman onların yanındadırlar. «Qəbələnin səsi» yazarlar birliyi ictimai təşkilat kimi öz fəaliyyətini davam etdirir. Onlar təkcə şəhid ailələrinin deyil, sağlamlığını itirən, Vətən yolunda ölümə belə hazır olan qazilərimizlə və döyüşçülərimizlə də tez-tez görüşür, ailələrini ziyarət edirlər.

Bu günlərdə belə görüşlərdən biri Vəndam qəsəbəsindən olan igid döyüşçümüz, qazi Turan Muradovun ailəsi ilə keçirildi.



Turan Muradovun atası Xudat Muradov I Qarabağ Müharibəsinin iştirakçısı, qazisidir. Bu ailədə bir neçə dəfə ziyarətdə olsalar da birliyin üzvləri qazi Turanın ailəsini yenidən ziyarət etdilər.

Turan Muradov 44 günlük müharibədə ağır yaralanmış, səhhətində, sağlamlığında ciddi problemlər yaşamışdır. Türkiyədə əməliyyat olunsa da, bədənindəki qəlpələri tam təmizləmək mümkün olmamışdır. Qeyd edək ki, qəlpələr zəhərli olduğu üçün Turan Muradov müalicəsini hələ də davam etdirir. Allah şəfa versin qazi balamıza!

Qazinin ailəsi ilə görüş ailəsi tərəfindən böyük ehtiramla qarşılandı.

**Şəhla XƏLİLQIZI,**
**«Qəbələ»nin ştatdankənar müxbiri.**

# Həmişə öndə

Qəbələ rayon Vəndam qəsəbəsi həmişə öz ziyalıları ilə seçilib. Müəllimlərinin dərin bilik və savadları şagirdlər ilə birgə çəkdikləri zəhmət hər zaman öz bəhrəsini verib.Vəndam savadlı jurnalistlər, həkimlər, mühəndislər, müəllimlər və. s. müxtəlif ixtisas sahibləri yetişdirir, onlar rayonumuzda və ölkəmizin müxtəlif bölgələrində, xarici ölkələrdə işləyirlər. 2024-cü il Vəndam məktəbi yenə öz fəaliyyətində-dir. Eldəniz Mehdiyev adına 1 saylı tam orta məktəb hər il olduğu kimi bu il də ənənədən geri qalmamışdır. Ali məktəbə qəbul olunanlar arasında 7 nəfər 600-dən yuxarı bal toplamışdır.






















**Onları tanıyaq**

Fidan Əfəndizadə 668 bal toplayaraq 1-ci qrup üzrə Qəbələ birincisi olub.

Bağırov Turxan Faiq oğlu - 661 bal.

Mikayılova Sahilə Elbrus qızı - 660 bal.

Cəfərquluyev Rəşad Sakit oğlu - 639 bal.

Rəsulova Rəna Anar qızı - 638 bal.

Nəsirov Fuad Ehtiram oğlu - 629 bal

Qədirli Aqşin Vüqar oğlu - 616 bal

Bilik aləmində uğurlarınız daimi olsun.

**Nigar PƏNAHLI,**
**Vəndam qəsəbəsi.**